

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 81 (22.992)

*2 may 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilmişdir



*Mayın 1-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının açılışı olmuşdur.*

Festival iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə tər gül dəstələri düzmüş və Heydər Əliyev Muzeyini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının açılışı münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, şahmatçıları və qonaqları salamlayaraq demişdir ki, Azərbaycanda şahmatın qədim tarixi var. Lakin intellektual idman növü kimi şahmatın inkişafına ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə nail olunmuş, ötən əsrin 70-ci illərində Azərbaycan şahmat məktəbi formalaşmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə müasir tələblər səviyyəsində şahmat məktəbləri, şahmatın inkişafı ilə bağlı maddi-texniki və tədris bazası yaradılmışdır. Şahmatın inkişafı hər bir ölkənin və xalqın ümumi intellektual potensialını göstərir. Qeyd etmək xoşdur ki, Azərbaycan Respublikası da şahmatın dövlət səviyyəsində himayə olunduğu ölkələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Şahmatın inkişafı bu gün Azərbaycanda dövlət siyasətidir”.***

Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmatın



inkişafına göstərilən diqqətin nəticəsidir ki, yetişən gənc nəsil üçün şahmat daha əlçatan olmuşdur. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzinin, muxtar respublikanın rayonlarında isə Uşaq-gənclər şahmat məktəblərinin istifadəyə verilməsi, ümumtəhsil məktəblərində şahmat fənninin tədrisi, Naxçıvanda beynəlxalq şahmat festivallarının və digər yarışların keçirilməsi şahmat hərəkatının genişlənməsinə öz təsirini göstərmişdir. Hazırda muxtar respublikada 1 qrossmeyster, 2 beynəlxalq şahmat ustası, 3 FİDE ustası, 1 beynəlxalq hakim və 1 FİDE hakimi fəaliyyət göstərir. 4 minə yaxın gənc şahmatla məşğul olur. Gənc şahmatçılardan üçünün adı gənc istedadların “Qızıl kitabı”na yazılmış və Ali Məclis Sədrinin aylıq xüsusi təqaüdünə layiq görülmüşlər.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri yarışların əsl idman mübarizəsi şəraitində keçəcəyinə əminliklə “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalını açıq elan etmiş, hər bir şahmatçıya qələbə arzulamışdır.

Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov çıxışında bildirmişdir ki, Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivallarının keçirilməsi böyük məna kəsb edir. Çünki ulu öndərin ölkəmizə rəhbərliyi dövründə şahmatın inkişafına böyük qayğı göstərilmişdir. Hələ Sovet İttifaqı dövründə dünya şahmat tacının Azərbaycana gətirilməsində də görkəmli dövlət xadiminin əvəzsiz xidmətləri olmuşdur. Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də şahmatın inkişafına xüsusi diqqət və qayğı göstərir. Buna görədir ki, Azərbaycan şahmatçıları hər il daha böyük uğurlar əldə edirlər. Son 10 ildə Azərbaycan millisi üç dəfə tarixi şahmat ənənələri olan Avropada qızıl, gümüş və bürünc medallar qazanmışdır. Şahmatın inkişafı ilə bağlı dünyada yeganə dövlət proqramının Azərbaycanda qəbul olunması da şahmata dövlət səviyyəsində göstərilən diqqətin ifadəsidir. Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafına böyük qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illər Naxçıvanda şahmat böyük inkişaf yolu keçmişdir. Artıq naxçıvanlı şahmatçılar beynəlxalq turnirlərdə, dünya və Avropa birinciliklərində yüksək nəticələr əldə edirlər.

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov bildirmişdir ki, Naxçıvanda ənənə halını almış beynəlxalq şahmat festivallarının keçirilməsinin böyük əhəmiyyəti vardır. Çünki ümummilli liderimiz Azərbaycanda bütün sahələrlə yanaşı, bədən tərbiyəsi və idmanın, o cümlədən şahmatın inkişafına hərtərəfli qayğı göstərmişdir. Bu gün də ölkə Prezidenti Azərbaycanda şahmatın inkişafını diqqətdə saxlayır. Göstərilən qayğı sayəsində gənclərin şahmata marağı xeyli artmış, bunun məntiqi nəticəsi olaraq Azərbaycan şahmatçıları beynəlxalq turnirlərdə böyük uğurlar qazanmışlar. Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş




“Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Azad Rəhimov muxtar respublikada idmanın və şahmatın inkişafı sahəsində görülən işlərə, eləcə də festivalın təşkilinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirmişdir.

Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti, Türkiyə Respublikasının Şahmat Federasiyasının prezidenti Gülkız Tülay çıxış edərək demişdir: – Naxçıvanda olduğum iki gün ərzində ulu öndər Heydər Əliyevin qeyd etdiyi “Bir millət, iki dövlət” fikrini bir daha yaxından hiss etdim. Bu müddət ərzində muxtar respublikadakı şahmat məktəblərində olmaq və onlar haqqında məlumat almaq imkanı əldə etdim. Burada gözəl şahmat məktəbləri var. Muxtar respublikanın şahmat infrastrukturuna və qabaqcıl təcrübəsinə əsaslanaraq demək olar ki, dövlət bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Şahmatçılar isə bundan bəhrələnərək özlərini inkişaf etdirirlər. Bu mənada, Naxçıvanda şahmatın inkişafı sahəsində görülən işlər nümunə gücündədir. Beynəlxalq Şahmat Federasiyası şahmatın inkişafı sahəsində həyata keçirdiyi tədbirlərdə Naxçıvan nümunəsini örnək götürməli və tətbiq etməlidir. Gülkız Tülay “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalına dəvət edildiyinə görə minnətdarlığını bildirmişdir.

Tədbirdə çıxış edən beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov beynəlxalq şahmat festivallarının keçirildiyi ötən 8 ildə Naxçıvanda şahmat sahəsində böyük nailiyyətlərin əldə edildiyini vurğulamışdır. Diqqətə çatdırmışdır ki, göstərilən dövlət qayğısı da şahmatın yeni mərhələdə inkişafına geniş imkanlar açır. Muxtar respublikanın bütün məktəblərində şahmatın tədris olunması, şahmat məktəblərinin fəaliyyət göstərməsi Naxçıvanda dünya əhəmiyyətli şahmatçıların yetişməsi üçün əsaslı zəmin yaradıb. Naxçıvan beynəlxalq şahmat mərkəzinə çevrilib. Dünyanın ən güclü şahmatçılarının festivalda iştirak etməsi bunu bir daha təsdiq edir.

Sonra şahmat festivalının püşkü atılmışdır.

“Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalında A, B və C qruplarında 15 ölkədən 300-dən artıq şahmatçı mübarizə aparacaqdır. 23 beynəlxalq qrossmeyster, 16 beynəlxalq usta, 14 FİDE ustası, eləcə də ustalığa namizəd şahmatçıların iştirak etdiyi festival mayın 10-dək davam edəcəkdir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**“Şərq qapısı”**

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi olub

***Naxçıvan Dövlət Texniki Kollecində “Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik” mövzusunda keçirilən lektoriyanı kollecin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov açıb. Bildirilib ki, XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan ulu öndər Heydər Əliyevin mənalı həyat yolu və siyasi fəaliyyəti gələcək nəsillər üçün böyük bir məktəbdir.***

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi Musa Quliyevin məruzəsi dinlənilib.

Məruzədə qeyd olunub ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin və müdrik dövlət başçılarının müstəsna rolu danılmazdır. Bəşəriyyətin yetirdiyi görkəmli dövlət xadimi Heydər Əliyev kimi nadir dühalar isə özləri bütöv bir salnamə, tarix yaratmağa qadir olurlar. Ulu öndərin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunədir.

Vurğulanıb ki, ümummilli lider hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə mühüm tarixi qərarları ilə ölkənin gələcək müstəqil həyata hazırlanması istiqamətində mühüm işlər görüb.

Qeyd olunub ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yarandı. Xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır, fərarilik artırdı. Erməni təcavüzü



gündən-günə güclənirdi. Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedir, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Belə bir dövrdə yenidən fəal siyasətə qayıdan ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Naxçıvanı işğal olunmaq təhlükəsindən, siyasi-iqtisadi böhrandan xilas etdi. Vətənin belə ağır günündə xalq nicat yolunu görkəmli dövlət xadimini Naxçıvandan ölkəyə rəhbərliyə dəvət etməkdə gördü. Ulu öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruldu.

Məruzədə qeyd olunub ki, ümummilli liderin milli dövlətçilik ənənələri bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Çoxcəhətli fəaliyyəti ilə özünü peşəkar, bacarıqlı və vətənpərvər siyasətçi kimi təsdiqləyən, intellektual imkanlarını, biliyini, təcrübəsini xalqının mənafeyi naminə səfərbər edən cənab İlham Əliyev növbəti prezident seçkilərində də seçicilərin böyük səs çoxluğu ilə dövlət başçısı seçildi. Bu həm də xalqımızın ümummilli liderin milli dövlətçilik ənənələrinə sadiqliyinin bariz ifadəsidir.

Sonda görkəmli dövlət xadiminin həyatı və siyasi fəaliyyəti haqqında sənədli film nümayiş etdirilib.

**Ramiyyə ƏKBƏROVA**

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans keçirilib.*

## "Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans keçirilib



Əvvəlcə qonaqlar ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüblər.

"Azərbaycançılıq və gənclik" adlı təbliğat kampaniyası çərçivəsində təşkil edilən konfransda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulduğunu çıxışında qeyd edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, dahi şəxsiyyət ölkəmizə rəhbərliyinin bütün dövrlərində gənc nəslin əsl himayədarı olub, sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlayıb. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ulu öndərin dövlət gənclər siyasəti uğurla davam etdirilir. Ölkəmizdə gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər mərkəzləri, idman kompleksləri tikilib istifadəyə verilir. Bunun nəticəsidir ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün istiqamətlərində fəal iştirak edir, beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi layiqincə təmsil edir.

Nazir vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"na uyğun olaraq keçirilən "Azərbaycanın Gənclər Paytaxtı" layihəsi ilk gündən böyük maraqla qarşılanıb, gənclərlə işin daha da canlandırılmasına səbəb olub. Bu baxımdan müsabiqə Naxçıvan gəncləri tərəfindən də daim diqqətdə saxlanılıb, Naxçıvan şəhərinin son illərdə keçirilən seçimlərdə namizədliyi irəli sürülüb. 2018-ci ilə İslam Mədəniyyəti Paytaxtı kimi qədəm qoyan Naxçıvan şəhəri, həmçinin gənclərin yüksək fəallığı, xüsusən internet resurslarında aktivliyi nəticəsində ölkəmizin Gənclər Paytaxtı seçilib. Bu, Naxçıvan Muxtar Respublikası tarixində əlamətdar hadisələrdən biridir. Adıçəkilən layihə muxtar respublikanın, Naxçıvan şəhərinin mövcud imkanlarının ölkə miqyasında təbliği baxımından böyük əhəmiyyətə malikdir.

"Bu gün "Azərbaycançılıq və gənclik" adlı təbliğat kampaniyası çərçivəsində "Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfransın keçirilməsi gənclərin ideoloji siyasi şüurunun artırılması, onların vahid fikir ətrafında birləşməsi baxımından böyük əhəmiyyətə malikdir", – deyən Azad Cabbarov diqqətə çatdırıb ki, muxtar respublikada son illər ərzində həyata keçirilən infrastruktur layihələri nəticəsində gənclərin yaradıcılıq və təhsil imkanlarının, asudə vaxtlarının səmərəli təşkili istiqamətində ən yüksək standartlara cavab verən maddi-texniki baza formalaşdırılıb. Müasir Azərbaycan gəncliyi bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə etməklə, xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarını daim rəhbər tutmaqla dövlət və dövlətçiliyə sədaqət ruhunda daha səylə çalışacaq, göstərilən etimadı doğruldacaqdır.

Konfransda çıxış edən Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov 2018-ci ilin Azərbaycanın Gənclər Paytaxtı seçilmiş qədim Naxçıvan şəhərini salamlayaraq bildirib ki, ulu öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil dövlətimizin uğurları ilə hər birimiz daim qürur hissi keçirir, azərbaycanlı olduğumuza görə fəxr edirik. Ümummilli liderimizin ideyalarının, siyasi kursunun layiqli davamçısı Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən misilsiz quruculuq işləri bunu deməyə əsas verir. Aprelin 11-də keçirilən prezident seçkilərinin nəticələri də xalqımızın Heydər Əliyev ideyalarına sadiqliyini bir daha təsdiqlədi.

Azad Rəhimov vurğulayıb ki, artıq respublikamızın 30-dan çox şəhər və rayonunda "Azərbaycançılıq və gənclik" təbliğat kampaniyası çərçivəsində tədbirlərin keçirilməsində məqsədimiz milli-mənəvi və ümumbəşəri dəyərlər sistemində ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin geniş müzakirəsini keçirmək və gənc nəslə çatdırmaq olub. Gənclər tərəfindən Azərbaycançılıq məfkurəsinin düzgün dərk edilməsi ölkəmizin strateji inkişaf hədəflərinə və dövlətçilik maraqlarının təmin olunmasına xidmət edən vacib amillərdəndir. Dövlətimizin inkişaf strategiyasının əsasında milli ideoloji prinsiplər durur. Bu prinsiplər minilliklərdən dövrümüzədək gələn qoruyub saxladığımız milli-mənəvi irsimiz, tarixi ənənələrimiz, mənəvi-əxlaqi dəyərlərlə yanaşı, müasir dövrün çağırışlarına uyğun yeni hədəflərin vəhdətində formalaşır. Azərbaycançılıq ideyası milli təhlükəsizliyimizin təmin olunmasına, ölkəmizə qarşı yönələn təhdidlərlə birgə mübarizənin aparılmasına, bir sözlə, müstəqilliyimizin sarsılmaz və dönməz edilməsinə xidmət edir.

Nazir qeyd edib ki, ulu öndərimiz Heydər Əliyevin cəmiyyətimizə təqdim etdiyi Azərbaycançılıq məfkurəsi milli, dini mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşını əhatə edir. Məfkurəmiz humanizm, sülhsevərlik kimi ümumbəşəri dəyərləri, multikulturalizmi, demokratik dəyərlərə sədaqət hissini formalaşdıran prinsipləri özündə ehtiva edir. Bu gün biz qürur hissi keçiririk ki, dünyada müstəqil Azərbaycan dövləti, qədim və zəngin tarixi olan Azərbaycan xalqı var. Bu xalqın mükəmməl dili, yüksək mədəni dəyərləri, özünəməxsus adət-ənənələri vardır. Bu dəyərləri qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə çatdırmaq cəmiyyətimiz qarşısında duran əsas vəzifələrdəndir. Azərbaycan Respublikasının gənclər və idman naziri çıxışının sonunda bir daha Naxçıvan gənclərini ölkənin ictimai-siyasi həyatında yüksək fəallıqlarına görə təbrik edərək əmin olduğunu bildirib ki, 2018-ci ilin Gənclər Paytaxtında çoxsaylı maraqlı və əhəmiyyətli tədbirlərin təşkilinin şahidi olacağıq.

Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının sədri, millət vəkili Şahin İsmayılov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədri Nurəddin Mehdiyev, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov konfransda çıxış edərək vurğulayıblar ki, Naxçıvan gəncləri ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətlə xidmət edəcək, xalqımızın tərəqqisi, dövlətçiliyimizin inkişafı naminə ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi işlərə öz töhfələrini verəcəklər.

Sonra "Naxçıvan" Universitetinin tələbəsi Allahverdi Qəribovun "Azərbaycançılıq – multikultural dəyərlər", Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Əfsanə Əlizadənin "Azərbaycançılıq – dövlət dili və dövlət rəmzləri" mövzularında çıxışları dinlənilib.

Konfransın bədii hissəsində Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar Bakı şəhərindən dəvət olunmuş müğənnilərin iştirakı ilə konsert proqramı təqdim olunub. Konsert proqramında Azərbaycan Respublikasının Xalq artisti Bilal Əliyevin, müğənnilərdən Günay İbrahimli, Elvin Abdullayev, Sevinc Musayeva, Azad Şabanov və Fərid Quliyevin ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## "Büdcə təşkilatlarında praktik mühasibatlıq" mövzusunda təkmilləşdirici təlim başlayıb



Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Büdcə təşkilatlarında praktik mühasibatlıq" mövzusunda təkmilləşdirici təlim öz işinə başlayıb. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin iclas zalında keçirilən təlimə müəyyən olunmuş büdcə təşkilatları üzrə 20 nəfər mühasibat işçisi dəvət olunub. Dörd gün ərzində keçiriləcək təlimdə büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması, xəzinə əməliyyatlarının, vergi uçotunun təşkili və maliyyə hesabatlarının hazırlanması kimi mövzular üzrə təlimlərin keçirilməsi nəzərdə tutulub. Təlim muxtar respublikada maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanması, təhsilin yekunlarına görə dinləyicilərin peşəkar biliklərinin və işgüzar keyfiyyətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Tədbirin əvvəlində Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elçin Əliyev iştirakçılara mərkəzdə keçirilən bu ilk təlimin mahiyyəti və gözlənilən nəticələrin əhəmiyyəti barədə məlumat verib. Sonra Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova çıxış edərək, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin funksiyaları haqqında danışıb. Bildirilib ki, mərkəzin əsas məqsədi maliyyə və mühasibat işi sahəsində işləyənlərin peşə hazırlığının təkmilləşdirilməsini təmin etməkdən ibarətdir. Görüləcək işlər muxtar respublikada yüksəkixtisaslı kadrların hazırlanması və maliyyə intizamının daha da gücləndirilməsinə töhfə verəcək.

Sonra gündəliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin ekspertlərinin təqdimatları üzrə təlim davam etdirilib. İlk olaraq "Büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması" mövzusunda Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Aləm Bağırovun "Büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması" mövzusunda çıxışı dinlənilib. İştirakçıların yüksək fəallığı şəraitində keçən təlim günü praktik iş, suallara cavab, sorğu-anketlərin doldurulması ilə başa çatıb.

Təlimin davam etdiriləcəyi sonrakı günlərdə Maliyyə Nazirliyinin Xəzinə şöbəsinin müdiri Nurlan Hacıyevin, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərovun, nazirlik aparatının baş məsləhətçi-mühasibi Məmmədnağı Əkbərovun müvafiq mövzular üzrə çıxışları olacaq. Qeyd edək ki, təlimin yekununda tədris olunan mövzu ilə bağlı qiymətləndirmə mərhələsindən sonra iştirakçılara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim ediləcəkdir.

**✍ Əli CABBAROV**

***Muxtar respublikada ailə-nikah, təbii artım, insanların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, miqrasiya və sair bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində məqsəd əhali artımını təmin edən şəraitin yaradılmasıdır.***

## Əhalinin siyahıyaalınması mühüm dövlət tədbiridir

Bu istiqamətdə aparılan tədbirlərin effektivliyinin öyrənilməsi məqsədilə əhalinin siyahıyaalınması keçirilməkdədir. Siyahıyaalınma hər hansı bir ərazidə yaşayan əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu məlumatların vaxtaşırı toplanması, ümumiləşdirilməsi və təhlili prosesidir. Bu, vahid prinsiplər və proqram əsasında bütün ərazidə, eyni zamanda adbaad, mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Sorğu yolu ilə əldə olunmuş məlumatların ümumiləşdirilmiş yekunlarından iqtisadi təhlillərdə, sosioloji tədqiqatlarda geniş istifadə olunur.

Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması Birləşmiş Millətlər Təşkilatının tövsiyələrinə uyğun olaraq hər 10 ildən bir keçirilir. Azərbaycan Respublikasında əhalinin birinci milli siyahıyaalınması 1999-cu, ikinci siyahıyaalınması isə 2009-cu ildə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında 1999-cu ildə keçirilmiş siyahıyaalınmada əhalinin sayı 354 min 72 nəfər, 2009-cu ildə isə bu göstərici 398 min 323 nəfər olmuşdur. 2009-cu ildə keçirilmiş siyahıyaalınmada əhalinin 198 min 267 nəfərini və ya 49,8 faizini kişilər, 200 min 56 nəfərini və ya 50,2 faizini isə qadınlar təşkil etmişdir. Əhalinin 115 min 488 nəfəri və ya 29 faizi şəhərlərdə, 282 min 835 nəfəri və ya 71 faizi kəndlərdə məskunlaşmışdır.

İqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə həyata keçirilən tədbirlər demoqrafik proseslərin keyfiyyətcə daha yüksək mərhələyə çatmasına imkan yaratmışdır. 2017-ci il may ayının 4-də mühüm hadisə kimi muxtar respublikanın 450 mininci sakini dünyaya göz açmışdır. Bu münasibətlə Doğum Mərkəzində tədbir keçirilmiş, yeni doğulan körpənin valideynlərinə mükafat və hədiyyələr təqdim olunmuşdur.

Son illər əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı əsas rol oynamış, muxtar respublika əhalisinin sayı 1 yanvar 2018-ci il tarixə 452 min 831 nəfər olmuşdur. Müqayisə üçün qeyd edək ki, birinci və ikinci siyahıyaalınma dövrlərində əhalinin sayı 44 min nəfər artdığı halda, son 8 ildə – yəni 2010-cu ildən ötən dövrdə əhalinin sayı 50 min nəfərdən çox artmışdır. Heç şübhəsiz ki, durmadan artan əhali sayı muxtar respublikada əldə olunmuş sosial-iqtisadi inkişafın uğurlu nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanı ilə növbəti siyahıyaalınma 2019-cu il oktyabr ayının 1-dən 10-dək keçiriləcəkdir.

Hər on ildən bir keçirilən siyahıyaalınmalar sosial-demoqrafik proseslərin müşahidə olunması və proqnozlaşdırılması üçün geniş imkanlar yaradır. Əhalinin 2009-cu ildə siyahıyaalınmasından keçən dövr ərzində baş vermiş ictimai-siyasi və iqtisadi proseslər demoqrafik vəziyyətə təsir göstərərək əhalinin sayına, yerləşməsinə, sosial-iqtisadi, cins-yaş və digər əlamətlər üzrə tərkibinin dəyişməsinə səbəb olmuşdur. Demoqrafik vəziyyəti öyrənərək əhali haqqında dolğun məlumat almaqla onlardan hesablama və proqnozlar hazırlanaraq elmi-praktik işlərdə və təsərrüfat fəaliyyətində istifadə olunur. Siyahıyaalınma məlumatları həm bütövlükdə ölkə səviyyəsində, həm də muxtar respublikada mühüm əhəmiyyətə malikdir. Belə ki, müxtəlif əlamətlər üzrə əhalinin tərkibinin öyrənilməsi muxtar respublikamızın sosial-iqtisadi inkişafı üzrə plan və proqramların hazırlanmasında önəmli rol oynayır.

Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınması üzrə hazırlıq işlərinin görülməsi, onun keçirilməsi, bu sahədə müvafiq nazirlik, komitə, idarə və təşkilatların, şəhər və rayon icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 2016-cı il 26 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınmasına yardım komissiyasının yaradılması haqqında" Sərəncam imzalanmışdır. Müvafiq sərəncamın icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınmasına yardım komissiyasının iş planı təsdiq edilmişdir. İş planında yerinə yetiriləcək işlər müəyyənləşdirilmiş, şəhər və rayon İcra hakimiyyətlərində əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılmış, icraya məsul orqanlara konkert tapşırıqlar verilmişdir.

Mühüm dövlət tədbirinin əsas icraçısı kimi əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur. Hazırda bu istiqamətdə işlərin görülməsi, iş planına uyğun olaraq təqvim üzrə həyata keçirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada peşə təhsilinin inkişafı ilə bağlı seminar keçirilib

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda Peşə Təhsili və Təliminə Avropa İttifaqının dəstəyi” layihəsi çərçivəsində Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə dünən “Təbriz” mehmanxanasında “Peşə təhsili və təlimi, bacarıqların gələcək inkişafı və iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsinə dair təcrübə mübadiləsi” adlı seminar təşkil olunub.

Seminarı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Xarici əlaqələr şöbəsinin müdiri Röya Səfərova açaraq qonaqları salamlayıb, seminarın əhəmiyyətini vurğulayıb, tədbir iştirakçılarına uğurlar arzulayıb.

Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas tədbir iştirakçılarını salamlayıb, Naxçıvanda yüksək qonaqpərvərliklə qarşılandıqları üçün minnətdarlığını bildirib, rəhbərlik etdiyi nümayəndəliyin fəaliyyət istiqamətlərindən bəhs edib. Bildirib ki, Avropa İttifaqı Azərbaycan Respublikasında peşə təhsili və təlimi sahəsində davam edən islahatları dəstəkləyir. Bu dəstəyin Naxçıvan Muxtar Respublikasına da faydalı təsirlərini nəzərə alaraq reallaşan seminar Avropa İttifaqının peşə təhsili və təlimi sahəsində ən nümunəvi təcrübələrini paylaşmaq, Avropa İttifaqının Azərbaycanda peşə təhsili sahəsində davam edən və gələcəkdə



planlaşdırılan layihələrini, Azərbaycan Respublikasının Peşə Təhsili üzrə Dövlət Agentliyinin hazırda davam edən və planlaşdırılan tədbirlərini təqdim etmək, Naxçıvan Muxtar Respublikasında peşə təhsili və təlimi sistemində mövcud praktika və qarşıda duran məsələlərlə tanış olmaq məqsədləri daşıyır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov “Naxçıvan Muxtar Respublikasında peşə təhsilinin inkişafı” adlı məruzəsində regionda peşə təhsilinin inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük qayğısı sayəsində günü-gündən yenilənən Naxçıvan özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq bir sıra mühüm tədbirlər həyata keçirilib, təhsilin bütün pillələri kimi, peşə təhsilinin inkişafı da diqqətdə saxlanılıb.

Vurğulanıb ki, peşə təhsili müəssisələrində tədris prosesi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş tədris planları əsasında həyata keçirilir, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən göndərilmiş dərsliklərdən istifadə olunur, elektron tədris vasitələrindən istifadəyə daha çox üstünlük verilir. Tədrisin keyfiyyətinin yüksəldilməsi və mütəxəssislərə lazımi metodik köməklik edilməsi məqsədilə nümunəvi dərslərin təşkili diqqətdə saxlanılır. Müdavimlərin nəzəri biliklərlə yanaşı, istehsalat bacarığının formalaşması üçün praktik dərslər emalatxanalarda keçilir.

Nazir qeyd edib ki, muxtar respublikada fəaliyyət göstərən peşə təhsili müəssisələrində təhsil alan müdavimlərin nəzəri biliklərinin praktik bacarıqları ilə əlaqəli şəkildə inkişaf etdirilməsi məqsədilə hər bir ixtisasa uyğun gələn istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanılır. Həmin müqavilələrə uyğun olaraq müdavimlər istehsalat təlimi ustalarının nəzarəti altında ixtisaslarına uyğun olan sahə üzrə istehsalat təcrübəsi keçir. Nəzəri biliklərin praktikada möhkəmləndirilməsini təmin edən istehsalat təcrübəsinin sonunda hər bir müsbət qiymət alan müdavim üçün istehsalat xasiyyətnaməsi verilir ki, bu da onların buraxılış imtahanlarında iştirakına zəmanət verir. Həyata keçirilən bu proses isə əmək bazarı ilə əlaqənin daha da sıx qurulmasına və azad iqtisadi münasibətlər şəraitində müxtəlif sahələrdə ixtisaslı işçi qüvvəsinə yaranan tələbatın çevik şəkildə ödənilməsinə şərait yaradır.

Qeyd edilib ki, hazırda muxtar respublikada 5 peşə təhsili müəssisəsi – Naxçıvan, Şərur və Ordubad şəhərlərində Texniki-Peşə və Sürücülük Məktəb kompleksləri, Naxçıvan şəhərində Peşə Liseyi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Regional Peşə Tədris Mərkəzi fəaliyyət göstərir. Bu təhsil müəssisələri ən yeni texnologiyalarla təchiz olunub, emalatxanalar yaradılıb. Məktəblərə elektron lövhələr, kompüter dəstləri verilib. Bütün bunlar adıçəkilən təhsil ocaqlarında oxuyan gənclərin öz peşələrinə dərindən yiyələnmələrinə imkan verib. Təhsilini başa vuran müdavimlərin işlə təminatı da diqqət mərkəzində saxlanılır.

Seminarda Azərbaycan Respublikası Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayevin “Azərbaycanda peşə təhsili və təlimi üzrə strateji yol xəritəsi çərçivəsində cari və planlaşdırılmış fəaliyyətlər”, “Azərbaycanda peşə təhsili və təliminin inkişafına Avropa İttifaqının dəstəyi” layihəsinin rəhbəri Herman Sonneveldin və layihənin baş eksperti Aleksander Siboninin “Azərbaycanda peşə təhsili və təliminin inkişafına Avropa İttifaqının dəstəyi” layihəsi çərçivəsində cari və planlaşdırılmış fəaliyyətlər”, Avropa Təlim Fondunun Əməliyyatlar şöbəsinin müdiri Anastasia Fetsinin “Peşə təhsili və təliminin potensialı: düzgün bacarıqlar və yaxşı imkanlarla yenilik və rəqabətədavamlılıq” və fondun Azərbaycandakı səlahiyyətli nümayəndəsi Margareta Nikolovskanın “Üzv dövlətlər və peşə təhsili və təlimində Turin prosesinin rolu” mövzularında məruzələri dinlənilib. Sonra müzakirələr aparılıb.

Seminardan sonra Naxçıvan şəhər Peşə Liseyində yaradılmış şərait, liseyin fəaliyyəti ilə yaxından tanış olan qonaqlara muxtar respublikanın yerli məhsullarından ibarət hədiyyələr təqdim edilib.

✍ **Muxtar MƏMMƏDOV**

## Seminar iştirakçıları Naxçıvanla bağlı xoş təəssüratlarını bölüşüblər



Xəbər verdiyimiz kimi, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Naxçıvan Muxtar Respublikasında səfərdə olub.

Kestutis Yankauskas “Şərq qapısı” qəzetinə müsahibəsində bildirib ki, səfər çərçivəsində yüksək səviyyəli görüşlər keçirib. Səfərin məqsədi “Peşə Təhsili və Təlimi Seminarı”nda iştirak etməkdir. Bu seminarda avropalı və naxçıvanlı mütəxəssislər mövzu ilə bağlı elmi-təcrübi mübadilə aparacaq və gələcək əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər.

“Səfər həm də sentyabr ayında Naxçıvanda keçiriləcək Avropa günlərinə hazırlıq məqsədi daşıyır. Həmin tədbir çərçivəsində Avropa İttifaqına üzv 20 dövlətin səfirliklərinin nümayəndələri Naxçıvana gələcək”, – deyən Kestutis Yankauskas vurğulayıb ki, bu tədbirlər gənclərə, təhsilə və biznesə həsr ediləcək. Naxçıvanla Avropa İttifaqı arasında bu sahələrin inkişaf etdirilməsi məsələləri birgə müzakirə olunacaq.

Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Eləcə də Naxçıvan 2018-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı və İslam Mədəniyyətinin Paytaxtıdır. Hiss edirik ki, gənclər bu tədbirlərdə fəal iştirak edirlər. Biz də Azərbaycan hökuməti ilə birgə azərbaycanlı gənclərin intellektual inkişafına və yaradıcılıq fəaliyyətinə daha çox diqqət yetirmək istəyirik.

Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri deyib: “Bu, mənim Naxçıvana ikinci səfərimdir. Bu müddət ərzində muxtar respublikanın sürətli inkişafının bir daha şahidi oldum. Naxçıvan Dövlət Universitetindəki elektron avadanlıqlar və qurulan virtual tədris mühiti məndə böyük təəssürat oyatdı. Əlbəttə, bu, texnologiyadan faydalanmaq, yeniliklər etmək üçün bir imkandır. Düşünürəm ki, biz burada “Erasmus +” proqramı çərçivəsində əməkdaşlığı daha da artıra bilərik”.

* * *

“2017-ci ilin yanvar ayının sonlarında başlayan “Azərbaycanda peşə təhsili və təliminin inkişafına Avropa İttifaqının dəstəyi” layihəsinin icrasında başlıca vəzifə Azərbaycanda ixtisaslı əmək qüvvəsinin yaradılması yolu ilə aparılan iqtisadi inkişafa xidmət etməkdir”.

Bu sözləri “Şərq qapısı” qəzetinə müsahibəsində layihənin rəhbəri Herman Sonneveld deyib.

O bildirib ki, əsas məqsədlərimizdən biri də həmin peşə təhsili sahəsində bacarıq və səriştələrin formalaşdırılmasıdır. Bütün bu işlərin bazasında qanunvericilik peşə təhsili alətləri və bacarıqlı əmək qüvvəsi olmalıdır. Burada əsas diqqət iş əsaslı təlimə yönəlməlidir. Təkcə məktəblər yox, eyni zamanda işəgötürənlər də bu işə səfərbər olmalıdırlar. Biz bu ilin payızında artıq yeni nəticəyə əsaslanan maliyyəyə dayanan sistemi pilot olaraq sınaqdan keçirmək istəyirik. Bu işi yeni əmək bazarına əsaslanmış kurikulumlarla birgə reallaşdıracağıq. Bu kurikulumlarda təkcə öyrənənlərin fəallıqları deyil, eyni zamanda müəllimlərin və mütəxəssislərin də fəaliyyəti çox mühüm rol oynayacaq. Öz məqsədlərimizə nail olmaq üçün biz, eyni zamanda məktəb idarəçilərinin və müəllimlərin təlimlərini həyata keçirəcəyik ki, məktəblərdə də müstəqil fəaliyyət prinsipləri formalaşsın.



Herman Sonneveld deyib: “Bizim fikrimizcə, bu sahədə maliyyələşdirmə təkcə dövlət tərəfindən deyil, eyni zamanda məktəblərin özlərinin gəliryaratma fəaliyyətləri ilə də aparılmalıdır, işəgötürənlər də bu işə investisiya yatırmalıdırlar. Bunun da məntiqi davamı olaraq bütün cəmiyyət inkişaf etmiş peşə təhsili və təliminin müsbət nəticələrini görəcək. İnsanlar yeni qanunvericiliyin də əhəmiyyətini anlamalıdırlar. Bu da ən sonda əmək bazarının və iqtisadiyyatın inkişafına öz töhfələrini verəcək. Biz bu işdə Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə sıx əməkdaşlıq edirik”.

Avropa Təlim Fondunun Əməliyyatlar şöbəsinin müdiri Anastasia Fetsi:



– Naxçıvan şəhər Peşə Liseyi ilə tanışlıq bizdə xoş təəssürat yaratdı. Burada yüksək səviyyəli infrastrukturun yaradıldığının şahidi olduq. Məktəbdə təhsil alanların nəzəri və praktik biliklərə yiyələnməsi üçün hərtərəfli şərait yaradılıb.

Liseydəki sinif otaqları və emalatxanaların lazımi avadanlıqlarla tam təchiz olunduğunu gördük. Mənim ən çox diqqətimi cəlb edən xalçaçılıq kursu oldu. Çünki bu qədim sənətin yaşadılması, fikrimcə, çox yaxşı haldır və o deməkdir ki, Naxçıvanda tarixən yaradılan peşə və sənətlərə ehtiramla yanaşılır.

Vurğulamaq istərdim ki, muxtar respublikada peşə təhsilinin dünya standartlarına cavab verməsinə böyük diqqət göstərilir. Bu sahənin inkişaf etdirilməsi dünyada qlobal tendensiyalardan biridir. Yəni reallıq budur ki, peşə təhsilinin daha da inkişaf etdirilməsinə hər yerdə ehtiyac var. Naxçıvanda bu məsələ öz həllini tapıb.

Burada olmaqdan çox məmnunam, bizə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

**Tural AĞAYEV**

## Orkestr heyətinin Naxçıvana qastrol səfəri başlayıb



Bursa Bölgə Dövlət Simfonik Orkestrinin heyəti Naxçıvan Muxtar Respublikasına qastrol səfərinə gəlib. Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Türkiyəli qonaqlara muzeydə dahi şəxsiyyətin fəaliyyətinin, elmi nəzəri irsinin təbliği istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Daha sonra orkestr heyəti “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar. Açıq səma altında nümayiş etdirilən daş abidələr onlarda böyük maraq oyadıb. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq zamanı məlumat verilib ki, bu abidə 1186-cı ildə tikilib, tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən ucaldılıb.

Xan sarayında olarkən qonaqların diqqətinə çatdırılıb ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb.

Qeyd edək ki, qastrol səfəri çərçivəsində Bursa Bölgə Dövlət Simfonik Orkestrinin mayın 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar geniş konsert proqramı olacaq.

✍ **Nail ƏSGƏROV**

## Birdəfəlik maddi yardım verilməsi barədə sərəncamın icrası təmin edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2018-ci il 20 aprel tarixli Sərəncamı bu təbəqədən olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti təzahürüdür.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən birdəfəlik maddi yardımın şamil olunduğu şəxslərə çatdırılması həyata keçirilib, sərəncama uyğun olaraq ayrılan məbləğlər həmin şəxslərin plastik bankomat kartlarına köçürülüb.

Sərəncama əsasən muxtar respublika üzrə 928 nəfərə birdəfəlik maddi yardım ödənilib. 25 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 manat, 898 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə 500 manat məbləğində birdəfəlik müavinət ödənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Birinci kurs tələbələrinin hesabat konserti keçirilib



Konsertdən əvvəl Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə I kurs tələbələrinin rəsm əsərlərindən ibarət sərgiyə baxış olub. Azərbaycan Respublikasının Xalq rəssamı, dosent Hüseynqulu Əliyev sərgi haqqında məlumat verib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov keçirilən sərgilərin tələbələr üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra Aktyorluq ixtisası üzrə I kurs tələbələrinin ifasında etüdlər göstərilib. Fakültə daxilində digər musiqi ixtisasları da daxil olmaqla, hesabat konsertində tələbələrin ifasında Azərbaycan klassik musiqisinin görkəmli nümayəndələri Cahangir Cahangirovun, Fikrət Əmirovun, Tofiq Quliyevin, Vasif Adıgözəlovun əsərləri və dünya klassiklərinin kompozisiyaları nümayiş olunub.

İncəsənət fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova çıxış edərək musiqi hazırlığı, səhnə mədəniyyəti və ifa tərzi ilə bağlı tövsiyələrini tələbələrə çatdırıb.

**Səadət ƏLİYEVA**

## *“Axtarışlar”* jurnalının cari ildə ilk sayı işıq üzü görüb




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” jurnalının cari ildə ilk nömrəsi işıq üzü görüb.

Jurnalın Folklorşünaslıq, Ədəbiyyatşünaslıq, Dilçilik, Sənətşünaslıq, Tarix və Biblioqrafiya bölmələrində AMEA Naxçıvan Bölməsinin, Dilçilik İnstitutunun, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Naxçıvan Dövlət Universitetinin və digər elm və təhsil müəssisələrinin əməkdaşlarının araşdırma materialları öz əksini tapıb.

“Axtarışlar”ın yeni sayında “Oğuznamə”lərdə Naxçıvan mühiti”, “Naxçıvan teatrının ilk baş rejissoru”, “Əlincəqala abidəsi və onun memarlıq məsələləri”, “Naxçıvan tüməni”, “Naxçıvan türk-islam memarlığında qədim inşaat sənətinin və ornament motivlərinin izləri”, “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixindən”, “Maarif və mədəniyyət sahəsində Osmanlı-Azərbaycan əməkdaşlığı (1918-ci il)” və digər məqalələr rus və ingilis dillərində xülasələrlə dərc olunub.

Biblioqrafiya bölməsində isə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Görkəmli dilçi-türkoloq” adlı məqaləsi yer alıb. Məqalədə Türkiyənin tanınmış dilçi alimi, professor Ahmed Bican Ercilasunun fəaliyyətinin üstün cəhətləri ətraflı işıqlandırılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Yurdumuzun nemətləri*

## Bərəkətli Naxçıvan torpağının qiymətli sərvəti

***Yurdumuzun saymaqla bitməyən, hər biri min bir dərdin dərmanı, hər biri bir damaq dadı olan bitkiləri bu ellərin tükənməz sərvəti, insanlara Tanrı tərəfindən bəxş olunan əvəzsiz nemətidir. Bu nemətlər bir-birindən ləziz, bir-birindən faydalıdır. Bax elə hazırda yığılmalı, yeyilməli vaxtı olan, nadir bitkilərdən hesab edilən, trüf göbələyinin (xalq arasında “dombalan” adlanır) mövsümüdür.***



Bu bitki haqqında çoxumuzun məlumatı ya çox az, ya da, ümumiyyətlə, yoxdur. Bu göbələk növü qiymətinə görə Avropada kürüdən sonra ikinci yerdədir. Kilosu 2000 avro dəyərindədir. Bəzilərimizin yaşadığı evlərdən 5-10 metr aralıda kiloqramlarla yığa biləcəyimiz bu bitkidən hazırlanan yemək dünyanın bir çox ölkələrində ən bahalı restoranların menyusunda yer alır. Bəziləri onu yemək üçün xeyli pul xərcləyir. Onu da deyək ki, həmin bahalı yemək xalis bu bitkidən ibarət olmur. Sadəcə, uyğun bir yeməyin üzərində bir dilim desert kimi qoyularaq müştərilərə təklif edilir. Həmin menyularla tanış olub o yeməyin həsrətində olan insanlardan fərqli olaraq Naxçıvanda bu bitkidən istənilən qədər toplayıb bazarlarımıza çıxaranların sayəsində hər kəs onu istədiyi qədər yeyə bilir.

Bu göbələk növü qumlu torpaqlarda toxumsuz və yarpaqsız əmələ gəlir. Yaz yağışlarından dərhal sonra quruyan qumlu torpaqlarda yaranan çatlar burada bu göbələk növünün yetişməsindən xəbər verir. Trüf göbələyinin bitdiyi yerlərdə həm də torpaq bir az qabarmış halda olur. Çox faydalı, bahalı və dəyərli hesab edilən bu göbələk ovalvarı, bir az uzunsov formada olur. Topraq altından çıxarılan bu bitkinin ən faydalısı yumru, sərt şəkildə olanlardır.

Şahbuz şəhərində yaşayan Malik Quliyev neçə illərdir ki, bu göbələk növünü yığıb satmaqla məşğuldur. Onun dediklərindən:

– Deyirlər ki, bu bitki 4-7 ildən bir olur, amma Şahbuzun möcüzəli təbiəti onun bəzən hər il belə, toplamasına imkan verir. Ötən il yox idi, ondan əvvəlki il isə istənilən qədər yığmaq olardı. Ümumiyyətlə, göbələyin bu növü yağıntı bol olan il daha çox olur. Bu yaz da hava yağışlı olduğundan müxtəlif növ göbələklər boldur.

Qeyd edək ki, trüf göbələyi Babək, Ordubad, Şərur, Kəngərli rayonları ilə yanaşı, Şahbuz rayonunun da aran ərazilərində – Şahbuz şəhərində, Türkeş, Şahbuzkənd, Sələsüz, Ayrınc kəndlərində qumlu torpaqlarda olur. Müsahibimiz bu mövsümdə Şahbuz şəhərinin yuxarı hissəsindəki qumlu torpaqlardan bu göbələkdən 30-40 kiloqram yığıb və münasib qiymətə satıb.

O deyir ki, bu il Culfa rayonundan bu bitkidən yığmaq üçün gələnlər çoxdur. Eşitmişdim ki, bu göbələk növü şəkər xəstəliyinin müalicəsində ən təsirli bitkidir. Bu haqda culfalılarla söhbət edəndə onlar dedilər ki, onu bişmiş yox, dilimləyib çiy şəkildə yemək qanda şəkərin miqdarını aşağı salmaqda əvəzsiz təsir göstərir.

Söhbətimizə Malikin atası – uzun illərdən bəri göbələk yığmaqla məşğul olan Yaşar əmi də qoşularaq deyir ki, trüf göbələyi şəkər xəstəliyindən başqa, xolesterini də aşağı salır, bədəni qüvvətləndirir. Bu bitkinin nə qədər dəyərli olduğu barədə Məhəmməd Peyğəmbər belə deyib ki, o, cənnətdən hədiyyə kimi göndərilmiş qüdrət halvası cinsindəndir, suyu da gözə şəfadır. Yaşar əmi bu göbələk növünün fərqli dadı və ətri ilə təbiət möcüzəsi olduğundan da danışır: – Torpağın bir qədər qabarmış hissəsinin ətrafını ehmalca təmizləyib onu tapanda sanki təbiət möcüzəsi ilə qarşılaşırsan. Naşı adamın tapa bilmədiyi bu bitki, həqiqətən, bənzərsizdir. Torpaqdan təzə çıxarılanda açıq qəhvəyi rəngdə olur, bir qədər qalandan sonra isə rəngi tündləşir. Qabığını soyanda, doğrayanda rəngi açıq çəhrayı, bişirəndə ağ olur. Bişiriləndə ətrafa bir cür, qurudulmuşundan isə başqa cür gözəl ətir yayılır. Dadından da doymaq olmur.

Yaşar əmi söhbətinə davam edərək dedi ki, bu yaxınlarda Malik çöldən bu bitkidən yığıb gətirmişdi. Evdə eynilə kartof kimi qızartmışdılar. Uşaqlar ləzzətlə, doyanadək yedilər.

Bu söhbəti dinləyərkən bu yerin yaşlı insanlarının tez-tez söylədikləri “Tanrı Naxçıvan torqağına fərqli bir səxavət göstərib” fikrini xəyalən təsdiqləyirəm. Düşünürəm ki, bizim uşaqlarımızın kartof qızartması kimi bol-bol yedikləri trüf göbələyi Avropanın bahalı restoranlarında desert kimi verilirsə, gözəl ətri olduğu üçün yeməklərə qarışdırılırsa, dəmәli, bizə nəsib etdiyi belə əvəzsiz nemətlərə görə yurdumuza minnətdar olmalıyıq. Bərəkətli torpağımızın, onun nemətlərinin qədrini bilib, təbiətimizin qoruyucusuna çevrilməli, bu gün bolluqla istifadə etdiyimiz bir-birindən faydalı bitkilərin “kökünə daş atmamalı”, gələcək nəsillər üçün qorunub saxlanılmasının qayğısına qalmalıyıq. Qiymətli bitkiləri muxtar respublikamıza gələn turistlərə tanıtmalı, restoranlarımızda yemək menyularına daxil etməklə onların öz ölkələrində baha olduğu üçün ala bilmədikləri bu nemətləri xeyli münasib qiymətə məhz Naxçıvanda dadmalarına şərait yaratmalıyıq. Bununla, onlarda Naxçıvanın gözəl təbiəti, dəyərli, zəngin qida məhsulları ilə ideal məkan olması fikrini formalaşdırmaqla, hər il istirahət üçün muxtar respublikamızı seçmələrinə nail ola bilərik.

**Mətanət MƏMMƏDOVA**

## Beynəlxalq Şahmat Festivalının ilk turu yekunlaşıb



*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalına start verilib.*

Festival çərçivəsində zəka sahibləri 3 qrupda mübarizə aparacaqlar. Reqlamentə əsasən beynəlxalq festivalda güclülərin (“A” qrupu), əmsalı az olanların (“B” qrupu) və uşaqların (“C” qrupu) yarışı keçiriləcək. Artıq festivalın “A” qrupunda iştirak etmək üçün 58 şahmatçı mübarizəyə qoşulub. İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq yarışda hər iştirakçıya 40 gediş üçün 90 dəqiqə, partiya başa çatana qədər hər şahmatçıya 30 dəqiqə və hər gediş üçün əlavə 30 saniyə vaxt ayrılır.

“Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının ilk turu artıq yekunlaşıb və nəticələr məlum olub.

“A” qrupunda 15 ölkənin – Ukrayna, Belarus, İsrail, Hollandiya, Almaniya, İspaniya, İran, Belçika, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Portuqaliya, Qazaxıstan və Azərbaycanın 58 zəka sahibinin gərgin mübarizəsi elə ilk turdan özünü büruzə verib. Turnirin ən iddialı iştirakçısı, eyni zamanda yarışın ən yüksək reytinqli şahmatçısı, ukraynalı qrossmeyster Anton Korobov (2678-beynəlxalq əmsal) azərbaycanlı beynəlxalq usta Nail Başirli ilə (2374) qarşılaşıb və görüş “sülh”lə başa çatıb. Azərbaycanlı qrossmeyster, turnirin ən reytinqli ikinci şahmatçısı Eltac Səfərli (2657) isə ilk turda azərbaycanlı qrossmeyster Sərhan Quliyevin (2373) müqavimətini qıra bilib. Turun ən maraqlı qarşılaşması isə azərbaycanlı qrossmeysterlər – Qədir Hüseynova (2654) Zeynəb Məmmədyarova (2367) arasında olub. Görüş birincinin qələbəsi ilə yekunlaşıb. Yarışın ən reytinqli 4-cü şahmatçısı, azərbaycanlı qrossmeyster Nicat Məmmədov (2602) beynəlxalq usta Gülnar Məmmədovaya (2360) şans tanımayıb.

“A” qrupunda Naxçıvan Muxtar Respublikasını 4 zəka sahibi təmsil edir. Qrossmeyster Urfan Sevdimalıyev (2397) Elmar Atakişiyevi məğlub etməyi bacarıb. Beynəlxalq usta Toğrul Həsənzadə (2350) isə ilk turda belaruslu qrossmeyster Aleksey Aleksandrovla (2594) bacarmayıb. FİDE ustamız Pərviz Qasımov (2329) almaniyalı qrossmeyster İqor Xenkinlə (2557) görüşdə ağ-qara taxtanı məğlub tərk edib. Yeni FİDE ustamız Sadiq Məmmədov (2293) isə yunanıstanlı qrossmeyster Vasilios Konroniasla (2518) heç-heçə etməyi bacarıb.

Əmsalı nisbətən aşağı olan şahmatçıların mübarizə apardığı “B” qrupunda isə ölkənin müxtəlif regionlarından 98 zəka sahibi qüvvəsini sınayır. İlk turdan sonra 45 şahmatçı maksimum xal toplayaraq turnir cədvəlinə liderlik edirlər.

“Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının “C” qrupunda 146 şahmatçı qüvvəsini sınayır ki, onların da 55-nin beynəlxalq əmsalı 1000-dən çoxdur. İlk iki turdan sonra 68 şahmatçı maksimum xal toplamağa nail olub.

## Mini-futbol üzrə rayon birinciliyinin qalibi müəyyən edilib

Kəngərli rayon Qıvraq qəsəbəsindəki mini-futbol meydançasında rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mini-futbol üzrə rayon birinciliyi keçirilib.

Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Gənclər Birliyi, Futbol Federasiyasının rayon bölməsi və Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə keçirilən birincilikdə ümumtəhsil məktəblərinin 10 komandası mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən final görüşündə Böyükdüz kənd tam orta məktəbinin komandasını məğlub edən Qıvraq qəsəbə tam orta məktəbinin komandası qalib adını qazanıb. Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Qalib komandalar və komanda üzvləri təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

## Xüsusi təyinatlılar hərbi beşnövçülük yarışlarında birinci olublar

*2018-ci ilin döyüş hazırlığı planına əsasən Naxçıvan Qarnizonu üzrə hərbi beşnövçülük üzrə birincilik keçirilib.*

Birincilikdə 14 komandadan 80 hərbi qulluqçu mübarizə aparıb. Yarış iştirakçıları maneələr zolağının dəf edilməsi, 200 metr məsafəyə avtomatdan atəşaçma, uzaqlığa və dəqiqliyə qumbaraatma, 8 kilometr məsafəyə kross qaçışı və üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, mayor Vahid Məmmədovun rəhbərlik etdiyi hərbi beşnövçülük yarışlarında hərbi qulluqçularla yanaşı, Heydər Əliyev adına Hərbi Liseyin kursantları da iştirak ediblər.

Birincilikdə komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə tankçılar, 3-cü yerdə isə motoatıcılar qərarlaşıblar.

Nəticələrə əsasən ilk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Nəriman NƏCƏFOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 326